Adımız məfkurəmizdir
30 mart – 5 aprel 2021-ci il
Türküstan
www.turkustan.info



Dilqəm ƏHMƏD



# Osmanlı ordusu və ya “Göydən enən mələklər”

## Osmanlı sultanı Azərbaycan haqqında: “Ömrümün ən səid dəqiqələridir”

əvvəli ötən sayımızda

***Saat 12:55-də Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop açıqlama yaydı: ‘Mülki əhalinin hədəfə alınması göstərir ki, Ermənistan təkcə Azərbaycan üçün təhdid deyil, bölgədə sülhə təhlükə yaradan islah olunmaz bir terror dövlətidir. Bu təxribatlara görə ancaq Ermənistan məsuliyyət daşıyır. Türkiyə bütün gücü ilə Azərbaycanın yanında olmaqda davam edəcək”.***

***Saat 13:23-də Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarın açıqlaması yayıldı:“Ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə sona qədər azərbaycanlı qardaşlarımızın yanında olacağıq. Ermənistanın xain hücumlarını qınayırıq. Qafqazda sülhə və sabitliyə ən böyük təhdid Ermənistanın təcavüzkar mövqeyidir. Bölgədə ciddi təhlükə yaradan bu təcavüzkarlığın qarşısı dərhal alınmalıdır”.***

Saat 13:26-da Türkiyənin Ədliyyə naziri Əbdülhəmid Gülün Tvitter açıqlaması yayıldı:“Ermənistanın Azərbaycana qarşı beynəlxalq hüququ pozan intensiv hücumlarını qətiyyətlə qınayırıq. Şəhidlərimizə rəhmət, yaralılarımıza isə şəfa diləyirəm. Türkiyə dost və qardaş Azərbaycanın yanındadır, hər cür dəstək verməyə hazırdır”.

Saat 14:15-də Azərbaycan prezidentinin mətbuat xidməti Türkiyə prezidenti R.T.Ərdoğanın telefonla zəng etməsi və Türkiyənin Azərbaycanın yanında olduğunu vurğulamasına dair bilgi verdi. Azərbaycan prezidenti Zəfər paradındakı çıxışında da bu məsələyə toxundu: “Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi”.

Zəfər paradınadək Türkiyənin Azərbaycana bu səpkili dəstəyi davam etdi. Zəfər paradından sonra Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın söylədiyi “Şuşa bir tarixdir. Şuşanı o tarixi ilə yaşamaq, görmək həqiqətən bizim üçün də bir sevgidir” fikri Azərbaycanda böyük rəğbət oyatdı.

44 gün ərzində Azərbaycan paytaxtında Türkiyə dövlətinə olan münasibət şəhərin Türkiyə bayraqları ilə bəzədilməsi ilə müşahidə edildi. Buna səbəb Türkiyənin mənəvi dəstəyi ilə yanaşı, Türkiyə istehsalı olan modern silahların da istifadəsi idi. Zəfər paradı günündə birgə mətbuat konfransında Azərbaycan prezidenti açıq şəkildə bildirdi: “Türkiyənin müdafiə sənayesinin məhsulu olan məşhur “Bayraktar” Vətən müharibəsində böyük dəyişikliyə səbəb oldu. Bizim uğurlarımızın əldə edilməsində müstəsna rol oynadı. Bütün dünya türk xalqının zəkasını, istedadını bir daha gördü. Türk sənayesinin inkişaf etmiş sənaye olmasını bir daha gördü”.

***Zəfər paradındakı çıxışında Ərdoğanın tarixi yaddaşın mühafizəsi ilə bağlı söylədiyi fikir də önəmli idi: ‘Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuri paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür”.***

44 günlük Böyük Vətən Müharibəsi dövründə Azərbaycan xalqının nəzərində Türkiyə xüsusi bir mövqeyə sahib oldu. I Qarabağ savaşı dövründən fərqli olaraq budəfəki müharibədə Türkiyənin açıq dəstəyi Azərbaycan xalqında 1918 ruhunu yenidən bərpa etdi. Bu savaş təkcə Azərbaycanın deyil, həm də Türkiyənin zəfəri oldu. Bununla bağlı R.T.Ərdoğan Qarsdakı “Sarıqamış-Karakurt-Xorasan” yolunun açılış mərasimində maraqlı fikirlər işlətdi: “Azərbaycanlı qardaşlarımızın mübarizəsi nəticəsində artıq bu gün Qarabağ səmalarını köhnə bir bez parça deyil, ay və ulduz bəzəyir. Azərbaycan bayrağı Qarabağda qürurla dalğalanır. Naxçıvan ilə Azərbaycan arasında dəhlizin açılması ilə artıq qardaşlarımızla birbaşa quru yolu bağlantısına da sahib olacağıq. Burada ən çox fayda görəcək yerlərin başında Qars durur”.

10 Noyabr bəyanatının imzalanmasının ən önəmli tərəfi də doqquzuncu bəndinin icrası ilə Azərbaycanın Naxçıvan və Türkiyə ilə birləşəcəyi faktı oldu.

Nəhayət, Azərbaycan xalqının 44 günlük müharibə dövründə Türkiyə dövlətinə olan sevgisinin təzahürü nəticəsində Zəfər bayramının tarixi Mustafa Kamal Atatürkün anım günü səbəbindən 8 noyabrla – Şuşanın azad edildiyi tarixlə dəyişdirildi.

Müharibənin bitdiyi 10 noyabr tarixində Türkiyə prezidenti ilə telefon danışığında Prezident İlham Əliyev qələbə haqqında bunları bildirdi: “Bu, bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir. Bu gün bu birlik tarixdə, bəlkə də, ən yüksək səviyyədədir”.

Türkiyə ilə Rusiya arasında Qarabağda atəşkəsə nəzarət üzrə mərkəzin yaradılması ilə bağlı razılaşmaya da bu konteksdən baxmaq lazımdır.

***Beləliklə, 1918-ci il Bakı, 2020-ci il II Qarabağ müharibəsi Azərbaycan xalqında Türkiyəyə olan inamı daha da artırıb. Xalq müharibənin başladığı ilk gündən Türkiyənin açıq şəkildə dəstəyini gördüyü üçün evlərini, mağazalarını, maşınlarını Türkiyə bayrağı ilə bəzəmişdi. Təsadüfi deyil ki, bununla bağlı xarici jurnalistlər Azərbaycan prezidentinə sual da ünvanlamışdılar. Eyni hal Türkiyədə də yaşanmışdır. İstər müharibə, istərsə də ondan sonrakı dönəmdə də birliyin simvolu olaraq hər iki bayraq mühüm dövlət qurumlarından, muzeylərdən, evlərdən bərabər şəkildə asıldı.***

*1918-ci il Bakı, 2020-ci il II Qarabağ müharibəsi Azərbaycan xalqında Türkiyəyə olan inamı daha da artırıb. Xalq müharibənin başladığı ilk gündən Türkiyənin açıq şəkildə dəstəyini gördüyü üçün evlərini, mağazalarını, maşınlarını Türkiyə bayrağı ilə bəzəmişdi. Təsadüfi deyil ki, bununla bağlı xarici jurnalistlər Azərbaycan prezidentinə sual da ünvanlamışdılar. Eyni hal Türkiyədə də yaşanmışdır. İstər müharibə, istərsə də ondan sonrakı dönəmdə də birliyin simvolu olaraq hər iki bayraq mühüm dövlət qurumlarından, muzeylərdən, evlərdən bərabər şəkildə asıldı*

Prezident İlham Əliyev 7 oktyabr 2020-ci ildə CNN-Türk televiziyasına müsahibəsində işlətdiyi fikirlərdə bu birliyi sərvət adlandırdı:

“Bütün bölgələrdə Türkiyə və Azərbaycan bayraqları bir yerdə dalğalanır. Eyni zamanda, bu gün Türkiyədə də Türkiyə ilə Azərbaycan bayraqları bir yerdə dalğalanır. Mənə göstərilən o videokadrlar da bizi çox duyğulandırır, çox məmnun edir ki, bizim türk qardaşlarımız orada avtomobilləri, binaları Türkiyə və Azərbaycan bayraqları ilə bəzəmişlər. Yəni bu, əsl qardaşlıq, həmrəylik rəmzidir. Azərbaycanı Türkiyə qədər dəstəkləyən ikinci ölkə yoxdur. Dünyada Türkiyəni də Azərbaycan qədər dəstəkləyən ikinci ölkə yoxdur. Bu, bizim böyük sərvətimizdir”.

***Buna görədir ki, Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi sorğuda respondentlərin əsaslı hissəsi (95.1%) Türkiyə bayrağına simpatiya duyduğunu bildirib.***

***1918-ci il noyabrın 10-da Bakıda şəhərin yay klubunda Nuri paşanın şərəfinə verilən ziyafətdə onun müşaviri şuşalı Əhməd bəy Ağaoğlu çıxışında belə demişdi: ‘Bən Bakıyı İstanbulda və İstanbulu Bakıda görüb də özümü o qədər bəxtiyar görürəm ki, daha ölsəm də qəmim yoxdur, dünyadan kam almış gidirəm”.***

***44 gündə müddətində Azərbaycan xalqı Ankaranı Bakıda, Bakını Ankarada gördü.***

### Ədəbiyyat:


*1. ARDA 970-1-30, 5-5A*

*2. Aran Mehmet Sadık. Azerbaycan İkinci Türk Devletidir. Yeni İstanbul qəzeti, sayı 6007,15 Eylül, 1966.*

*3. Cavanşir Həmidə. “Xatirələrim”, Bakı, 2012.*

*4. Emekli Kur. Yb. Süleyman İzzet. Büyük Harpte (1334-1918) 15. Piyade Tümeninin Azerbaycan ve Şimali Kafkasyadaki Hareket ve Muharebeleri. İstanbul, 1936. Askeri Mecmua, sayı: 44.*

*5. Ertürk Cebbar. Anayurtta Unutulan Türklük. Kayseri, 1956.*

*6. Hacıbəyli Üzeyir bəy. Bayrağımız sarsılmaz. Bakı, 2011.*

*7. Resulzade Mehmed Emin Azerbaycan Cumhuriyeti. Keyfiyet-i Teşekkülü ve Şimdiki Vaziyeti. Ankara, 1990.*

*8. Süleymanov Mehman. Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixi. I Cild. Tehran, 2014.*

*9. Türkər Qaimməqam Rüştü. Qafqaz Türk İslam Ordusu Bakı yollarında. Bakı, 2008.*

*10. Yaqublu Nəsimi. Qafqaz İslam Ordusu və Nuru paşanın Azərbaycanda izləri”. Bakı, 2018.*

*11. Yeni Kafkasya. 1923-1924. İstanbul, 2018.*

*12. https://azertag.az/xeber/1662855*

*13. https://azertag.az/xeber/1659243*

*14. https://stm.az/uploads-/e3274-bayraq.pdf*




Oxu, oxut, abunə ol!